

# Avropa İttifaqına gedən yol:
## üstünlükləri və irəliləyiş imkanı

2025

# Avropa İttifaqına gedən yol:
# üstünlükləri və irəliləyiş imkanı

**Nəşrdə Avropa İttifaqı İnstitutlarının veb-saytlarda dərc olunan informasiyalarından, Eurostatın məlumatlarından, ictimai, açıq və etibarlı rəsmi mənbələrdən istifadə edilib.**

*Nəşr Böyük Britaniya hökumətinin və BMT-nın İnkişaf Proqramının (UNDP) dəstəyi ilə hazırlanıb. Onun məzmunu müəllifə məxsusdur və Birləşmiş Krallığın və ya Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının fikirlərini əks etdirməyə bilər.*

***Broşura müəllifi və layihə eksperti: Ekaterine Kardava,*** *hüquq elmləri doktoru, Jean Monnet professoru və Qori Dövlət Universitetində Erasmus+ Jean Monnet kafedrasının rəhbəri; "Avropa vaxtı ilə" Assosiasiyasının sədri, Avropa İttifaqının elmi fəaliyyət layihələrinin (EU COST Actions) qiymətləndiricisi; EU CA22124 layihəsinin idarəedici komitəsinin Gürcüstandan olan üzvü; əmək hüququ və menecment sahəsində məsləhətçidir; 30-dan çox elmi əsərin (kitabın, məqalənin, dərsliyin, tədqiqatın) müəllifidir.*

**Layihə koordinatoru: Giorgi Kakubava**

**Layihənin müəllifi və icraçısı:** Hüquq Müdafiəçiləri Birliyi - İnsan Hüquqları Mərkəzi

© Hüquq Müdafiəçiləri Birliyi - İnsan Hüquqları Mərkəzi
© Müəllif, Ekaterine Kardava
© Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı - UNDP

**Tbilisi, 2025**

# Mündəricat


1. **Avropa İttifaqının əsas nailiyyətləri** ........ 3

Avropa İttifaqı nədir? ........ 3
Sülh ........ 3
Daxili bazar ........ 4
Avropa İttifaqında ümumi azadlıq sahəsi və insan hüquqları necədir? ...... 5
Təhsil ........ 6
Mədəniyyət ........ 6
Qida təhlükəsizliyi və keyfiyyəti ........ 7
Beynəlxalq diplomatiya, təhlükəsizlik və humanitar yardım ........ 7
Avropa İttifaqının büdcəsi ........ 8
Nəqliyyat siyasəti ........ 9
Avropa İttifaqında kənd təsərrüfatı və regional siyasət necədir? ........ 9
Avropa İttifaqında vətəndaş məmnunluğu indeksi necədir? ........ 10

2. **Avropa İttifaqı üzvlüyünün postsovet ölkələri üçün faydaları** ........ 13

Xorvatiya nümunəsi ........ 17

3. **Avropa İttifaqının bank-kredit siyasəti necədir?** ........ 18

4. **Gürcüstan üçün namizəd statusu nə deməkdir?** ........ 19

# 1 Avropa İttifaqının əsas nailiyyətləri

## Avropa İttifaqı nədir?



Avropa İttifaqı **daha ədalətli və təhlükəsiz dünyada sülh, firavanlıq və azadlığı təmin etmək məqsədi daşıyan** unikal siyasi və iqtisadi birlikdir. Aİ insan ləyaqəti, azadlıq, bərabərlik, qanunun aliliyi, habelə insan hüquqlarına hörmət kimi dəyərlərə əsaslanır. Bu dəyərlər Avropa İttifaqının 446 milyon vətəndaşı ilə münasibətdə plüralizm, tolerantlıq, ədalət, həmrəylik və bərabərlik ilə xarakterizə olunan 27 üzv dövləti birləşdirir. Aİ-ni təşkil edən 27 dövlətin vətəndaşlarını birləşdirən ideya məhz budur.

## Sülh

**Avropa İttifaqı (Avropa Birliyi) 73 illik fasiləsiz sülh, sabitlik və rifahı** (1951-ci ildən bu günə qədər) **təmin etmişdir.** Avropa İttifaqı 2012-ci ildə Nobel Sülh Mükafatına layiq görülüb. Avropa İttifaqına üzv dövlətlərin birliyinin əsas dəyəri sülhün qorunması və bir-birinin maraqlarını nəzərə almaqla fəaliyyət göstərmək idi və bu indi də belədir. Bu birlik daxilində **milli** və **ümumi Avropa** məqsədləri üst-üstə düşür ki, bu da azad daxili bazarın işləməsi və davamlılığına, ümumbəşəri ədalət və rifah sahəsinin mövcud olmasına, müxtəlif xalqların dinc, yanaşı və həmrəylik içində yaşamasına səbəb oldu.

**Sülh, ümumi Avropa təhlükəsizliyinin və rifahının möhkəmləndirilməsi prosesində üzv dövlətlərin Avropa İttifaqına daxil olmaqla, qarşılıqlı faydalı fəaliyyətlə məşğul olmaq barədə şüurlu qərarı ilə təmin edilir.** Hər biri dərk edir ki, sülh üçün milli suverenliklə yanaşı, ümumi Avropa suverenliyi də qurmaq vacibdir. Keçmiş müharibələrin və münaqişələrin tarixi yaddaşı onları bir yerdə qalmağa və bir-birini qorumağa sövq edir. Üzv dövlətlərin bu cür müdrik seçimləri Aİ qurumlarının qərarları ilə qorunur. Aİ mütənasiblik və subsidiarlıq prinsiplərinə hörmət edən



qanunlar və qərarlar qəbul edir, bu da Aİ siyasətində 27 dövlətin və xalqın ümumi maraqlarının nəzərə alınması deməkdir.

## Daxili bazar



**Daxili bazar Avropa İttifaqının əsas iqtisadi mühərriki və ən böyük sərmayəsidir.** Bu, insana Aİ (Avropa qitəsinin əksər hissəsi) daxilində sərbəst hərəkət etməyə imkan verir. İnsanlarla yanaşı **malların, xidmətlərin və kapitalın sərbəst hərəkəti üçün** unikal imkan mövcuddur.

**Avro** (340 milyondan çox Avropa İttifaqı vətəndaşı tərəfindən istifadə olunur) valyuta dalğalanmalarını və mübadilə xərcləri riskini aradan qaldıraraq, daxili bazarı Aİ ölkələrinin, bizneslərin və vətəndaşların xeyrinə gücləndirdi.

Avropa İttifaqının daxili bazarında, **malların daşınması** 27 ölkə miqyasında **vahid gömrük qaydası** çərçivəsində həyata keçirilir. Bu qayda bütün dünyanın diqqətini çəkdi və Avropa Birliyinə doğru ticarət yollarını açdı. **Avropa İttifaqı daxili bazarı** demək olar ki, bütün dövlətlərin və uğurlu bizneslərin mübadilə münasibətləri qurduğu **mərkəzi yerə çevrildi**.

Qlobal ticarətə gəldikdə isə Avropa İttifaqı birinci yerdədir. **Ticarət rejiminin açıq olması Avropa İttifaqının dünya ticarət səhnəsində ən böyük oyunçu olması deməkdir.** Aİ dünyada istehsal olunan mal və xidmətlərin ən böyük ixracatçısıdır və eyni zamanda, özü də **80-ə yaxın ölkə üçün** ən böyük ixrac bazarıdır.

**Avropa İttifaqı daxili bazarda bərabərlik və rəqabət siyasətini qoruyur.** Nə dövlətin, nə də biznesin şəxsi mənfəət üçün biznes azadlığını məhdudlaşdırmaq hüququ yoxdur. **Avropa İttifaqında 446 milyon istehlakçı var,** onların Aİ-nın daxili bazarında ədalətli və ayrı-seçkiliyə yol verməyən rəqabət qaydaları sayəsində istənilən mal və xidmətlərə əlçatanlıqları var. **İstehlakçılar zərərsiz qida və təhlükəsiz məhsullarla qorunan əlverişli qiymətlərdən razıdırlar.**

# Avropa İttifaqında ümumi azadlıq sahəsi və insan hüquqları necədir?



**Hər bir Avropa İttifaqı vətəndaşı** istənilən Aİ ölkəsində oxumaq, işləmək və ya təqaüdə çıxmaq hüququna malikdir. Məşğulluq, sosial təminat və vergi məqsədləri üçün bütün Aİ ölkələri digər Aİ üzv dövlətlərinin vətəndaşlarına öz vətəndaşları kimi davranmağa borcludurlar.

**Avropa İttifaqı səviyyəsində işçilərin hüquqlarının müdafiəsinə xüsusi diqqət yetirilir.** Avropa İttifaqının istənilən ölkəsində Aİ tərəfindən müəyyən edilmiş işçilərin müdafiəsinin **minimum standartları** tətbiq edilir *(Maksimum iş həftəsinin uzunluğu, məzuniyyət müddəti, analıq məzuniyyətinin ödəniş sxemi, sınaq müddəti standartı, uşağa qulluq (valideynə) və atalıq məzuniyyəti müddəti, minimum əmək haqqı sxemi və s.).* Təbii ki, hər bir ölkənin Avropa İttifaqının müəyyən etdiyi standartlardan daha da yüksək standartlar müəyyən etmək hüququ var, **lakin heç kimin standartı aşağı salmağa haqqı yoxdur**. Bu, Aİ-də ortaq rifah sahəsi yaradır.

**Avropa İttifaqında hesab edirlər ki, ödənişsiz təcrübə gənclərə qarşı ədalətsiz hərəkət və müasir köləlikdir.**

**Avropa İttifaqının Əsas Hüquqlar Xartiyası peşəkar və ailə həyatını tarazlaşdırmaq və uzlaşdırmaq üçün yeni hüquq müəyyən etdi;**

Avropa İttifaqında qanunvericilik səviyyəsində (2003/86 saylı direktivlə) **ailə birliyi prinsipi qorunur**. **Əgər həyat yoldaşlarından biri Aİ-də işləyirsə, qalan ailə üzvləri də onun yanında ola bilər.** Avropa İttifaqında belə hesab edirlər ki, ailə üzvlərinin birləşməsi ailə həyatı üçün zəruri bir yoldur; bu, sosial-mədəni sabitliyin yaradılmasına təşviq edir, iqtisadi və sosial birliyə və cəmiyyətin əsas məqsədinə xidmət göstərir.

Aİ **ananın körpədən ayrı qalmaq məcburiyyətində olmaması və ana südü ilə qidalandırmanın vaxtından əvvəl dayandırılmaması üçün** dünyaya yeni

uşaq gətirmiş analar üçün **anaya** məcburi **analıq məzuniyyəti** müddəti və adekvat ödəniş sxemi müəyyən edib. [1]

**Avropa İttifaqında uzunömürlülük artıb.** 15 ölkədə ömür uzunluğu Aİ-nın orta göstəricini keçib. Ən yüksək ömür uzunluğu İspaniyada (84 yaş), İtaliya (83,8 yaş) və Maltada (83,6 yaş) qeydə alınıb; Ən aşağı ömür uzunluğu Bolqarıstanda (75,8 yaş), Latviyada (75,9 yaş) və Rumınıyada (76,6 yaş) qeydə alınıb.

## Təhsil

**Təhsil siyasəti Aİ-yə üzv olan hər bir ölkənin preroqatividir. Avropa İttifaqı bu sahədə dəstəkçi və inkişaf etdirici kimi çıxış edir.**



Aİ elmi, təlim və mübadilə proqramları (Erasmus+, EU Cost Actions, Horizon Europe, European Solidarity Corps və s.) çərçivəsində təkcə üzv dövlətlərdə deyil, həm də tərəfdaş və qonşu ölkələrdə universitetləri, tədqiqat müəssisələrini və digər təhsil institutlarını maliyyələşdirir.

## Mədəniyyət

**Mədəniyyət sahəsi Avropa İttifaqına üzv dövlətlərinin milli səlahiyyət sahəsidir. Avropa İttifaqının mədəniyyət sahəsində qanunlar qəbul etmək hüququ yoxdur.** Əksinə, Aİ üzv dövlətlərin ehtiyaclarının həlli yollarına dəstək olmağa və  yardım proqramlarını maliyyələşdirməyə borcludur.

Beləliklə, Avropa İttifaqının səlahiyyətlərinə aşağıdakılar daxildir:

- *Mədəni  irsin təkcə Avropa İttifaqında deyil, bütün dünya miqyasında mühafizəsi;*
- *Mədəniyyət və yaradıcı sahələrə dəstək;*
- *Avropa irsinin və onun etiketlərinin mühafizəsi [2];*

[1] *Kardava E. Gürcüstan  Əmək Qanunvericiliyinin Avropa İttifaqının Əmək Qanununa uyğunluğu: Analıq məzuniyyəti hissəsində qərarlar və çətinliklər*, Jean Monnet Excellence, CSG, 2024, səh. 23-25, https://cu.edu.ge/files/Docs/2024/grant%20project/europlants/Publikacia_P2%20(1).pdf

[2] Avropanın irsi abidələri bugünkü Avropanın yaradılmasının mərhələləridir. Bu abidələr və onların yerləşdiyi yerlər Avropa ideallarının, dəyərlərinin, tarixinin və inteqrasiyasını simvoludur. 2013-cü ildən, belə yerlərin və abidələrin seçilməsi və onların üzərində Avropa İrs Etiketinin təyin edilməsinə başlanıldı. Bax. Burada sadalanıb: https://culture.ec.europa.eu/cultural-heritage/initiatives-and-success-stories/european-heritage-label

- *Rəqəmsal mədəniyyətin inkişafı [3];*
- *İdmana dəstək.*

## Qida təhlükəsizliyi və keyfiyyəti

**Avropa İttifaqında qida təhlükəsizliyi 4 istiqamətə bölünür:**

1. Bitki sağlamlığı
2. heyvan sağlamlığı
3. qida gigiyenası
4. çirkləndiricilər və tullantılar

Bu, insan sağlamlığı və uzunömürlülük üçün mühit yaradır.

Avropa İttifaqı ölkələri ümumi təhlükəsizlik qaydalarının yaradılması üçün sıx əməkdaşlıq etdiyi üçün Avropa İttiafqında istehsal olunan qida və ətraf mühit dünyanın ən yüksək keyfiyyət standartlarına cavab verir. Aİ-də 2006-cı ildən bəri antibiotiklərin köməyi ilə böyümə təşviqçiləri istifadə edilmir; 3500 məhsul Aİ keyfiyyət sxemi üzrə qeydiyyatdan keçib; Pestisidlərin (PPP) istifadəsi məsələsi Aİ-nin xüsusi qanunları ilə tənzimlənir; Suyun, havanın və.s keyfiyyətinə nəzarət edilir.

## Beynəlxalq diplomatiya, təhlükəsizlik və humanitar yardım



**Avropa İttifaqı və onun üzv dövlətləri birlikdə dünyanın ən böyük inkişaf donorunu təmsil edirlər. Avropa İttifaqı institutları və milli hökumətlər yaxşı idarəçiliyi təşviq etmək, aclığa qarşı mübarizə aparmaq və təbii sərvətləri qorumaq üçün birlikdə fəaliyyət göstərirlər.** Avropa İttifaqı həm Avropa daxilində, həm də ondan kənarda olan ölkələrə və əhaliyə yardım göstərir. Böyük

---

[3] Avropa Komissiyası media xidmətləri və Avropa mədəni irsinin qorunub saxlanması ilə bağlı qanunvericiliyi özündə əks etdirən media siyasətinə ardıcıl yanaşmanı təşviq edir. Avropa Komissiyası Aİ miqyasında məzmun paylaşma qabiliyyətini dəstəkləyən qanunvericilik üzərində işləyir. O, müəllif hüquqları üçün düzgün tənzimləyici çərçivənin mövcud olmasını təmin edir ki, bütün vətəndaşlar həqiqətlə əlaqəli rəqəmsal Avropa tərəfindən təklif olunan böyük imkanlardan tam yararlana bilsinlər. Avropanın kitabxanalarında, arxivlərində, muzeylərində və audiovizual arxivlərində Avropa mədəni irs kolleksiyalarının rəqəmsallaşdırılması onu hamı üçün əlçatan edir.

fəlakətlər və ya humanitar fövqəladə hallar zamanı Avropa İttifaqı dünyanın aparıcı yardım subyektidir. Avropa İttifaqı hər il 80-dən çox ölkədə 120 milyondan çox fəlakət və münaqişə qurbanlarını ərzaqla, sığınacaqla, sağlamlığı qorumaq vasitələri və təmiz su ilə təmin edir.

## Avropa İttifaqının büdcəsi



Avropa İttifaqı böyük infrastruktur və tədqiqat layihələrini maliyyələşdirir; **üzv ölkələrə və dünyadakı çağırışlara cavab verməyə kömək edir.** Avropa İttifaqı büdcəsi Avropa İttifaqına üzv ölkələrin milli büdcələrini tamamlayır; **Avropa İttifaqının büdcəsi həmrəylik prinsipinə əsaslanır** və buna görə də Avropa İttifaqında daha az varlı üzv dövlətlərə onların iqtisadi inkişafı üçün dəstək göstərilə bilər. Həmrəylik həm də qonşuları/üçüncü ölkələri dəstəkləmək və onların vətəndaşlarının həyatını yaxşılaşdırmağa kömək etmək deməkdir.

**Avropa İttifaqının 2021-2027-ci illər üçün büdcəsi təxminən 2 trilyon avro təşkil edir.**

**O, əsasən 7 xərc sahəsinə bölünür:**

- Daxili bazar və innovasiyalar;
- Birlik, davamlılıq və dəyərlər;
- Təbii ehtiyatlar və ətraf mühit;
- Miqrasiya və sərhədlərin idarə edilməsi;
- Təhlükəsizlik və müdafiə;
- Qonşuluq və dünya;
- Avropa dövlət idarəçiliyi.

**Avropa İttifaqı büdcəsinin böyük bir hissəsi (təxminən 50%) Kənd Təsərrüfatı Zəmanət Fonduna, balıqçılıq, kənd yerlərinin inkişafı və regional inkişafa yönəldilir.**

# Nəqliyyat siyasəti

**Nəqliyyat iqtisadiyyata çox böyük töhfədir. Nəqliyyat sektorunda 11 milyondan çox insan çalışır.**

Nəqliyyat Avropa inteqrasiyasının təməl daşıdır və insanların, xidmətlərin və malların sərbəst hərəkəti üçün həyati əhəmiyyət kəsb edir.

**Nəqliyyat siyasəti yaşıl, çevik və sürətli strategiyalara yönəlib.**

Dəmir yolu sektoru üzrə strategiya 2030-cu ilə qədər Avropa İttifaqında yüksək sürətli **dəmir yolu** nəqliyyatının iki dəfə artırılmasını nəzərdə tutur.

# Avropa İttifaqında kənd təsərrüfatı və regional siyasət necədir?

Ümumi Kənd Təsərrüfatı Siyasəti (CAP) **ərzaq istehsalı, ətraf mühitin mühafizəsi və kənd yerlərinin inkişafı məsələsini əhatə edir.**

Avropa İttifaqının məqsədlərinə kənd təsərrüfatı və meşə təsərrüfatının rəqabət qabiliyyətinin təşviqi, təbii ehtiyatların və iqlim fəaliyyətinin davamlı idarə olunmasının təmin edilməsi, kənd iqtisadiyyatı və icmalarının balanslaşdırılmış ərazi inkişafına nail olmaq (**o cümlədən, iş yerlərinin yaradılması və saxlanılması**) daxildir.

İlk dəfə 2017-ci ildə yaranan **"Ağıllı Kənd"** (Smart Village) konsepsiyası - kənd yerlərinin sosial-iqtisadi imkanlarının genişləndirilməsi və kənd təsərrüfatının modernləşdirilməsi üçün Avropa İttifaqının mühüm ərazi alətidir.

## Avropa İttifaqında vətəndaş məmnunluğu indeksi necədir?

**Hər il bütün dünyada insanların məmnunluğu və xoşbəxtliyi ilə bağlı sorğu keçirilir.** Belə tədqiqat 6 əsas meyara əsaslanır:

1. Gəlir;
2. Sağlam ömür uzunluğu;
3. Çətin vaxtlarda dayağı, köməkçisi olmaq;
4. Xeyirxahlıq mühiti;
5. Azadlıq;
6. Güvən (hökumətdə və biznesdə korrupsiyanın olmaması ilə ölçülür).

**2024-cü ilin məlumatına əsasən:**

143 ölkə arasında Həyat Təkamülü/İnkişaf İndeksində ən yüksək mövqeləri əsasən Avropa İttifaqına üzv dövlətlər, o cümlədən hazırda Aİ üzvü olan keçmiş sovet ölkələri tutur.




*Gürcüstan məmnunluq və xoşbəxtlik indeksində 143 ölkə arasında 91-ci yeri tutur.*

**143 ölkə miqyasında yaşlı əhali arasında xoşbəxtlik indeksi belə görünür:**




*Gürcüstan yaşlı əhalinin xoşbəxtlik indeksində 143 ölkə arasında 91-ci yeri tutur*

**2006-2010-cu ildən 2021-2023-cü ilə qədər 134 ölkə arasında xoşbəxtlik indeksinin artım məlumatları aşağıdakı kimidir:**

*(Genişlənmə ölkələrində davam edən Avropa islahatları fonunda (təxminən 17 illik inkişaf yolu ilə) xoşbəxtlik indeksi də yüksəlirdi).*

*Aİ-yə yeni üzv ölkələr (keçmiş sovet ölkələri)* ***yaşıl*** *rənglə işarələnib; Gələcək genişlənmənin 10 ölkəsi* ***mavi*** *rənglə qeyd olunub.*

*134 ölkə arasında xoşbəxtlik indeksinin artımı ilə bağlı məlumatlar*



# 2 Avropa İttifaqı üzvlüyünün postsovet ölkələri üçün faydaları

**20 il əvvəl, 2004-cü il mayın 1-də səkkiz Mərkəzi Avropa ölkəsi (CEE[4]) Avropa İttifaqına (Çexiya, Estoniya, Macarıstan, Latviya, Litva, Polşa, Slovakiya və Sloveniya) qoşuldu.** Polşa İqtisadiyyat İnstitutunun araşdırmasına görə, hazırda regionun səkkiz ölkəsinin adambaşına düşən ÜDM-u, onların üzv olmadıqları təqdirdə olacağından, 27 % artıqdır.

**CEE ölkələri üzvlüyünun 20 illiyi sübut edir ki, ən böyük fayda ilk növbədə daxili bazardan əldə olunub:** Birbaşa xarici yatırımların axını (21 dəfə artım) və qlobal təchizat zəncirlərinə inteqrasiya. Məsələn, ICT (informasiya və kommunikasiya texnologiyaları) xidmətlərində yaradılan əlavə dəyər 2008-2021-ci illər arasında iki dəfə artıb.

İqtisadi faydalardan əlavə, Avropa İttifaqının genişlənməsi yeni üzvlərə **sosial uğur da** gətirdi. Regionun səkkiz ölkəsində də həyat keyfiyyəti göstəriciləri əhəmiyyətli dərəcədə artmışdır. Bu uzun ömürlülüyü və adambaşına düşən gəlir səviyyəsini əhatə edir. Məsələn, **Sloveniya hazırda regionda ən yüksək insan inkişafı indeksinə malikdir** (dünyada 23-cü yerdə).

**Kənd yerlərində də həyat səviyyəsi yaxşılaşıb.** Bundan əlavə, səkkiz üzv ölkədən beşində yoxsulluq riski altında olan insanların payı Avropa İttifaqı orta göstəricisindən aşağı düşüb, korrupsiya hər yerdə azalıb (istisnalar Macarıstan və Sloveniya idi). Ətraf mühit standartları, enerji istehsalının strukturu və region iqtisadiyyatının karbon intensivliyi dəyişib.

**Üzvlük hər səkkiz ölkədə bərpa olunan enerjinin inkişafını sürətləndirdi.** Enerji, nəqliyyat və istilik sektorlarının transformasiyası havanın keyfiyyətini yaxşılaşdırdı. 2005-ci ildən 2021-ciilədək Avropa İttifaqı miqyasında havanın çirklənməsi ilə bağlı erkən ölüm sayı 75% azalıb.

[4] CEE Mərkəzi və Şərqi Avropanı ifadə edir: Avropa İttifaqına qoşulan ilk 8 postsovet ölkəsi - Estoniya, Latviya, Litva, Çexiya, Slovakiya, Sloveniya, Polşa, Macarıstan. CEE-yə daha iki genişlənmə ölkəsi - Rumıniya və Bolqarıstan daxildir. CEE-yə ən son genişlənmə ölkəsi - Xorvatiya daxildir.

Aşağıda Avropa İttifaqının 11 yeni üzv ölkələrinin məlumatları verilmişdir. Bu məlumatların sinxronlaşdırılması və müqayisəsi mövcud sosial-iqtisadi vəziyyətin mənzərəsini göstərir.



**Ölkələr üzrə işsizlik (%)**




| Ölkə | İşsizlik |
|---|---|
| Polşa | 2.8% |
| Çexiya | 2.6% |
| Sloveniya | 3.7% |
| Rumıniya | 5.6% |
| Estoniya | 6.4% |
| Macarıstan | 4.1% |
| Litva | 6.9% |
| Xorvatiya | 6.1% |
| Latviya | 6.5% |
| Slovakiya | 5.8% |
| Bolqarıstan | 4.3% |

**Ölkə - Adambaşına düşən ÜDM, avro**

| Ölkə | ÜDM |
|---|---|
| Sloveniya | 22 130 € |
| Çexiya | 18 480 € |
| Slovakiya | 16 710 € |
| Litva | 15 330 € |
| Estoniya | 15 250 € |
| Xorvatiya | 15 020 € |
| Polşa | 14 880 € |
| Macarıstan | 14 430 € |
| Latviya | 13 300 € |
| Rumıniya | 10 250 € |
| Bolqarıstan | 7 900 € |

1500 €

**Məlumatlar göstərir ki, məcburi minimum əmək haqqı ilə pensiya miqdarı arasında fərq cüzidir.**

**Aİ-nin məqsədi istehlak qiymətlərini Aİ vətəndaşları üçün əlverişli etməkdir. Təbii ki, istehlak qiymətləri və minimum gəlir/əmək haqqı indeksi balanslaşdırılmışdır.** Məsələn, **bir litr südün qiyməti:**

**Ölkə - 1 litr, südün qiyməti, avro**



# Xorvatiya nümunəsi




**Xorvatiya 2013-cü ildə Avropa Birliyinə daxil olan yeddinci genişlənmənin sonuncu ölkəsidir.**

- Xorvatiya üzvlük üçün ərizəni 21 fevral 2003-cü ildə təqdim etmişdir.
- Avropa Komissiyası ərizəni 2004-cü ilin aprel ayında müsbət qiymətləndirdi (ərizə təqdim edildikdən bir il iki ay sonra).[5]
- Üzvlüklə bağlı danışıqlar nəhayət, 2005-ci il oktyabrın 3-də, Haaqanın Baş Prokurorunun Xorvatiyanın Beynəlxalq Cinayət Tribunalı ilə tam əməkdaşlığını təsdiq etməsindən sonra başladı.
- Üzvlük üçün hazırlıq prosesi beş il doqquz ay çəkdi.
- Danışıqların yekun fəsilləri 2011-ci il iyunun 30-da bağlanıb.
- Üzvlük Müqaviləsi imzalandıqdan və üzv dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra **Xorvatiya 2013-cü il iyulun 1-də Avropa İttifaqına qoşuldu.**
- **2023-cü ildə Şengen zonasına daxil olub.**
- **2023-cü ildə Avrozonaya daxil oldu.**

İqtisadi artım baxımından, Avropa İttifaqına daxil olduqdan on il sonra Xorvatiyada adambaşına düşən ÜDM-i Aİ üzrə orta göstəriyə əsasən 50%-dən 75%-ə yüksəldi, beləliklə, o, 2008-ci il maliyyə böhranından sonra tamamilə bərpa ola bildi; ixrac iki dəfə artdı; işsizlik səviyyəsi isə 2013-cü ildəki 17,25%-dən 6,1%-ə qədər azalıb.

- Xorvatiya əhalisi 3 861 976 nəfərdir (2024-cü ilin məlumatlarına əsasən).
- 2023-cü ilin məlumatlarına görə, Xorvatiyanın Aİ ölkələrinə ixracının payı 67,3%, dünyanın qalan hissəsinə isə 32,7% təşkil edir.
- Adambaşına düşən ÜDM - 15 020 avrodur.
- Bərpa olunan enerjinin payı - 28,1%.
- Minimum əmək haqqı - 840 avro
- Xorvatiya Avropa fondlarını ən çox qəbul edəndir, Avropa İttifaqının ən gənc üzvü olduğunu nəzərə alsaq, bu heç də təəccüblü deyil.

[5] Gürcüstanın ərizəsi Avropa İttifaqına təqdim edildikdən 4 ay sonra müsbət qiymətləndirilib.

# 3 Avropa İttifaqının bank-kredit siyasəti necədir?

Bank Birliyi (Banking Union) Avropa İttifaqının iqtisadi və valyuta ittifaqını gücləndirmək üçün mühüm mexanizmdir, bu da Aİ-nin bank qaydalarının Aİ üzv dövlətlərində ardıcıl şəkildə istifadə olunmasına imkan verir.

**Avropa İttifaqında maliyyə sabitliyi əsasdır** və bu, sadəcə maliyyə bazarlarının və bazar infrastrukturunun dəstəklənməsini və inkişafını deyil, həm də maliyyə şoklarına birlikdə tap gətirməyi və tarazlığını nəzərdə tutur.

**Avropa Mərkəzi Bankı (ECB)** Avropa İttifaqının əsas institutlarından biridir və onun funksiyalarına maliyyə sabitliyinin təmin edilməsi, risklərin müəyyən edilməsi və risklərin qiymətləndirilməsi daxildir.

**2000-2024-cü illərdə Avrozonanın kommersiya bankları tərəfindən verilən daşınmaz əmlakın satın alınması kreditlərinin faizi belə görünür: ən yüksək 6,53% və ən aşağı isə 1,40% təşkil edir.**

**Avrozonaya hazırda 27 Aİ ölkəsindən 20-si daxildir:** Belçika, Almaniya, Estoniya, İrlandiya, Yunanıstan, İspaniya, Fransa, Xorvatiya, İtaliya, Kipr, Latviya, Litva, Lüksemburq, Malta, Hollandiya, Avstriya, Portuqaliya, Sloveniya, Slovakiya və Finlandiya.

Bolqarıstan, Çexiya, Danimarka, Macarıstan, Polşa, Rumıniya və İsveç **Avrozonada deyil** (Avrozonaya üzv olmaq Avropa İttifaqının monetar və iqtisadi öhdəliklərinin yerinə yetirilməsi ilə bağlıdır).

Aşağıda Avrozona ölkələrində (son genişlənən CEE ölkələri daxil olmaqla) daşınmaz əmlak və istehlak kreditlərinin faiz miqdarı verilmişdir.

**Daşınmaz əmlak krediti faizi:**



**İstehlak krediti faizi:**




Son genişlənmənin geridə qalan Mərkəzi və Şərqi Avropa ölkələrinə (CEE), o cümlədən Bolqarıstan, Çexiya, Macarıstan, Polşa və Rumıniyaya gəlincə, **onlar ümumi bank əməliyyatı və maliyyə sabitliyi siyasəti çərçivəsində fəaliyyət göstərir** və tədricən Avropa İttifaqının monetar siyasəti ilə yaxınlaşma prosesini həyata keçirirlər. Bu ölkələrdə daşınmaz əmlak krediti dərəcələri bu cürdür:

- Polşa - 7.610%.
- Rumıniya - 8.180%.
- Çexiya - 5.863%
- Macarıstan - 7.500%
- Bolqarıstan - 4.555%

## 4 Gürcüstan üçün namizəd statusu nə deməkdir?

Avropanın inkişaf yolu Gürcüstan xalqının seçimidir. Gürcüstan müstəqilliyini elan etdiyi gündən davamlı olaraq Avropaya inteqrasiya siyasətini davam etdirir. Bu kurs heç bir hökumət tərəfindən dəyişdirilmə/dayandırma/xitam verilməmişdir. Son 30 il ərzində Gürcüstan **özünü inkişaf etdirmək** və Aİ standartlarına yaxınlaşmaq üçün Aİ-nin tövsiyələrini həyata keçirir. Bu tövsiyələrin və islahatların həyata keçirilməsi üçün **Avropa İttifaqı** bilavasitə **vəsait ayıracaq (ildə ən azı 100 milyon avro**) **və Gürcüstan hökumətinə köçürəcəkdi.**

**Pandemiya dövründə Avropa İttifaqı Gürcüstana təxminən 1,5 milyard lari məbləğində yardım edib.** Bu, dünya müstəvisində ən böyük yardım həcmlərindən biri idi (əhalinin sayı nəzərə alınmaqla). Bununla **Avropa İttifaqı** bu misli görünməmiş böhran zamanı **Gürcüstanla güclü həmrəyliyini ifadə etdi** (Aİ-nin özü də böyük çətinlik və böhranla üzləşmişdi).

**2022-ci il martın 3-də Gürcüstanın baş naziri rəsmi şəkildə, yazılı və açıq şəkildə Avropa İttifaqına Gürcüstanın Avropa İttifaqına üzv olması xahişi ilə müraciət edib. Avropa Birliyi buna cavab olaraq Gürcüstana namizəd statusu verib. 2023-cü ilin dekabrında, Avropa Şurasının qərarı əsasında Gürcüstan digər 9 ölkə ilə birlikdə genişlənmə məkanına daxil olub.**

Digər ölkələrlə yanaşı, Gürcüstan üçün də tövsiyələr hazırlanmışdı və onların icrasının gedişatının qiymətləndirilməsi əsasında Gürcüstanla üzvlük danışıqlarına başlanılacaqdı.

**Yuxarıda (müxtəlif fəsillərdə) təqdim olunan faktlar, statistika, rəqəmlər və dinamika göstərir ki, digər ölkələr üçün olduğu kimi, Avropa İttifaqı tərəfindən də Gürcüstana da eyni fayda və xeyirxahlıq nəzərdə tutulub. (iqtisadi, sosial, siyasi, infrastruktur, inklüziv, humanitar və s.).**

**Namizədlik nə deməkdir?** İlk növbədə, bu, Avropa İttifaqının Gürcüstana güclü (siyasi, maliyyə, proqram, humanitar) dəstəyinin tanınması və köməyidir, çünki Gürcüstan xalqı onun Avropa gələcəyi və inkişafı üçün öz iradəsini nümayiş etdirib. Genişlənmə yeni üzv dövlətlərə bir çox faydalar gətirir, o cümlədən:

- *Siyasi sabitlik;*
- *Vətəndaşların istənilən Aİ ölkəsində yaşamaq, oxumaq və ya işləmək azadlığı;*
- *Aİ-nin daxili bazarına çıxış yolu ilə ticarəti artırmaq;*
- *Maliyyələşmənin və investisiyaların artması;*
- *Sosial, ətraf mühit və istehlak standartlarının yüksəldilməsi.*

**Gürcüstan nə etməlidir?** Gürcüstanın Avropa İttifaqında gələcəyi bir neçə mühüm addımın – məlum “9 addım”ın yerinə yetirilməsindən asılıdır. Buna "Agentlər Qanunu"nun Avropa İttifaqının dəyər və prinsipləri ilə uyğunsuzluğu da əlavə edildi. Tövsiyələrin yerinə yetirilməsi Gürcüstan üçün növbəti mərhələyə, yeni üzvlük danışıqlarının başlanmasına keçmək üçün həlledicidir.

**Hər addım və mərhələ Avropa İttifaqı üçün yox, məhz Gürcüstan əhalisinin həyatının yaxşılaşdırılması üçündür. Bununla isə Gürcüstan Avropa İttifaqının, insanların özlərini daha xoşbəxt və daha məmnun hiss etməsinə səbəb olacaq həmin o standartlarına yaxınlaşacaq.**

Hüquq Müdafiəçiləri Birliyi –
İnsan Hüquqları Mərkəzi